**UOT 070**

## BÖYÜK BRİTANİYADA MƏTBUATIN TƏNZİMLƏNMƏSİ

***Ülviyyə Yadulla qızı Hüseynova***
***Azərbaycan Dillər Universiteti***
***u.huseynova@adu.edu.az***

**Açar sözlər:** *mətbuat, senzura, azadlıq, kral xartiyası, qanunvericilik, nəzarət, ictimai sorğu*

## PRESS REGULATION IN GREAT BRITAIN

***Ulviyya Huseynova***

**Keywords**: *press, censorship, freedom, royal charter, legislation, control, public inquiry*

*The article deals with the regulation of the British press. The struggle of different writers and journalists for the freedom of the press has been researched in the article. Their method, ways of struggling against the government, political parties and powers have been looked into the article. The role of the writings and articles describing the situation, reactions of people and the process of getting independence, cancealing cencorship in the press have been reviewed in the article. The creation of some regulatory bodies like "Press Complaints Commission", "Press Council", "Recognition Panel" and their responsibilities and members have been largely showed in the article, too. Last regulatory body, its membership and the support of the king have been analyzed in the article. The public inquiry into the culture, practices and ethics of the press and Leveson Report in 2012, ammendments to laws have been broadly analyzed in this article.*

## РЕГУЛИРОВАНИЕ ПРЕССЫ В ВЕЛИКОБРИТАНИИ

***Ульвия Гусейнова***

**Ключевые слова:** *пресса, цензура, свобода, королевская хартия, законодательство, контроль, общественное расследование*

*Статья посвящена регулированию британской прессы. В статье исследована борьба разных писателей и журналистов за свободу прессы. Их метод, способы борьбы с правительством, политическими партиями и властями были рассмотрены в статье. В статье рассмотрена роль статей и статей, описывающих ситуацию, реакции людей и процесс обретения независимости, отмены цензуры в прессе. Создание некоторых регулирующих органов, таких как «Комиссия по жалобам на прессу», «Совет по прессе», «Группа по признанию», а также их обязанности и члены, также были в значительной степени отражены в статье. Последний регулирующий орган, его членство и поддержка короля были проанализированы в статье. Публичное расследование культуры, практики и этики прессы и Leveson Report в 2012 году, поправок к законам были широко проанализированы в этой статье.*

Britaniyada mətbuat azadlığı uğrunda mübarizənin əsası Con Lokk və Daniyel Defo kimi mütəfəkkirlərə dayanır. Məşhur ingilis yazıçısı D. Defo “Rivyu” (“Review”) jurnalını nəşr edirdi. Defo siyasi, ticari və sosial mövzulara uyğun materialları özü yazıb, eyni vaxtda həm müxbir, həm şərhçi, həm də redaktor kimi çalışırdı. O, özündə faktları seçmək, tapmaq, onlardan istifadə etmək, zəngin lüğət ehtiyatına malik olmaq, öz işini tənqidi qiymətləndirmək bacarıqlarını xüsusilə dəyərləndirirdi. Defo həmçinin ona böyük problemlər yaradan siyasi fəaliyyət ilə də məşğul olurdu. Maliyyə çətinlikləri ilə qarşılaşdığı zamanlar o, İngiltərə baş nazirinin məxfi xidmət rəhbəri vəzifəsində çalışırdı. İngiltərədə D. Defodan başqa universal publisitlər içərisində “Tatler” həftəlik nəşrinin həm redaktoru, həm də müəllifi olan Riçard Stili də qeyd etmək zəruridir. Əslən İngiltərəli olan dövlət xadimi, publisist, filosof, jurnalist Tomas Peyn isə öz pamfletləri ilə təkcə Avropada deyil, habelə Amerikada da baş verən ictimai-siyasi proseslərə güclü təsir etmişdir. Uilyam Kobbet kimi publisist isə öz kəskin tənqidi yazıları üzündən həbsxanaya düşməsinə baxmayaraq, həbsdə olduğu müddətdə siyasi mövzuda 364 məktub və esse yazmışdır. Digər ingilis publisisti Riçard Karlayl, daha sonra isə onun yoldaşı və bacısı, Tomas Peynin yazılarını dərc etdikləri üçün azadlıqdan məhrum edilmişdilər [3, s.14-18].

Liberalizm ideya-siyasi fikrinin əsas yaradıcılarından sayılan və “Boş lövhə” (tabula rasa) konsepsiyasını irəli sürən filosof C. Lokk, cəmiyyətin inkişaf məsələsini axırıncının düzgün ruhda tərbiyə olunması ilə sıx konteksdə nəzərdən keçirirdi. Azad ruhlu düşüncələrinə görə İngiltərədə təqiblərə məruz qalan C. Lokk, İngiltərədə mütləqiyyətin mövcud olduğu müddətdə Hollandiyaya emiqrasiya etməyə məcbur olur. Burada yüksək təbəqənin bir çox üzvləri ilə yaxın münasibət quran C. Lokk, öz siyasi-fəlsəfi ideyalarının təbliği

üçün münasib bir mühit tapır. C. Lokkun fəlsəfi baxışlarına əsasən hakimiyyət ölkənin başı ilə deyil, bu başa taxılan və asanlıqla dəyişdirilə bilən baş geyimi ilə müqayisə olunmalıdır. Başqa sözlə desək cəmiyyət daimi, dövlət isə ondan törəyən bir məfhumdur [6, s.201]. Bu istiqamətdə mətbuat azadlığının mövcudluğu, qeyd edilən əlaqənin yenilməzliyini təmin etmək və hakimiyyətin mütləqiyyətə çevrilməsi qarşısını almaq nöqteyi-nəzərindən zəruridir. İngiltərədə empirik fəlsəfənin tərəfdarlarından sayılan C. Lokk, R. Dekart kimi rasionalistlərdən fərqli olaraq insana əvvəlcədən xas olan fundamental ideyalar konsepsiyasını təkzib edirdi. Onun əvəzinə biliyin təcrübə yolu ilə qazanılmasını və fərqli məkanlarda müxtəlif sistemlərin mövcud olduğunu iddia edən C. Lokk, beləliklə, bir tərəfdən monarxın hakimiyyətinin Tanrıdan gəlmə tezisini yenildirdi, digər tərəfdən isə obyektiv reallığa fərqli nəzər nöqtələrinin mümkünlük tezisini əsaslandırırdı. Obyektiv reallığa fərqli baxış prizmalarının formalaşdırılması üçün isə fikir, söz və mətbuat azadlıqları vətəndaş cəmiyyətində zəruri postulatlar kimi qəbul olunmalıdır [7, s.28-47] .

İngiltərədə mətbuat azadlığı ilə sosial məsuliyyət anlayışı sıx əlaqədə formalaşırdı. C. Miltona əsasən azadlıq hüdudsuz ola bilməz, beləki əks halda ondan respublikanın rəqibləri olan yalançı və şərçilər istifadə edəcəklər. Öz çıxış və əsərlərində C. Milton publisistin, hakimiyyətin mənbəyi olan xalq qarşısında məsuliyyətindən söz açır. C. Milton mətbuat üzərində nəzarət əleyhinə mülahizələrini, 1644-cü ildə parlamentə müraciət olunan "Areopagitika" adlı pamfletində belə ifadə etmişdir: "Əgər biz mətbuatı tənzimləməklə mənəviyyatı yaxşılaşdırmaq istəyiriksə, eyni ilə bütün əyləncə və rahatlıqlarla – insana həzz verən hər şeylə davranmalıyıq" [6, s.213]. Miltonun bu mövqeyini ingilis yazıçısı C. Oruel sonradan "1984" adlı məşhur romanında əks etdirir. Paytaxtı London adlanan romanda təsvir edilən ölkədə dövlət, insanların nə yeməsi, hansı musiqini dinləməsi, oturub-durması, nə haqda düşünməsinə nəzarət edir. Hər meydanın divarında portretlər elə çəkilmişdir ki, harda durmasından asılı olmayaraq portretdəki gözlər insanı hər yerdən izləyirdi. Helikopterlər evlərin yaxınlığında uçaraq insanların pəncərələrinə baxırdı: "Bağlı pəncərələrin arxasında soyuq hələ də öz işini görürdü. ...Şəhərin hər yerinə yapışdırılmış rəngli plakatlardan başqa qalan nə varsa, hamısı bomboz görünürdü. ...Qarşıdakı binadan da portret asılmışdı. BÖYÜK QARDAŞ SƏNƏ BAXIR – bu şəklin altında da eyni xəbərdarlıq sözləri yazılmışdı. ...Uzaqda, damların arasında helikopter diqqətini çəkdi. Helikopter leş üstündə uçan milçək kimi dövrə vurub bir anlığa havadan asılı vəziyyətdə qaldı, sonra gözdən itdi. İçərisində pəncərədən mənzillərə nəzarət edən patrullar vardı." [1, s.12-19]. C. Oruell beləliklə,hal-hazırda da aktual olan bürokratik və texniki cəhətdən inkişaf etmiş İngiltərədə, insanların öz şəxsi müstəqilliyinə duyulan hədələri öz əsərində belə bədii dildə təsvir etmişdi.

XVIII əsrdə İngiltərə mətbuatına bədii publisistikanın sintetik janrı kimi oçerklər daxil edilmişdir. “Spektater” (“Spectator”) və “Totler” (“Tottler”) jurnallarında məqalələr çap etdirən Stil və Andison kimi jurnalistlər, ilk dəfə olaraq İosif Bikerstafın sərgüzəştlərini çap etdirdilər. Bu, London həyatının mənəvi təsvir səhnələri idi. Qeyd edək ki, İngiltərədə başlayan bu tendensiya Avropada elə geniş vüsət aldı ki, artıq XIX əsrin birinci yarısında oçerk janrında L. Berne, H. Heyne və Y. Höte kimi görkəmli yazıçılar əsərlər nəşr edirdilər [10, s.366]. Qeyd etmək lazımdır ki, dünya mətbuatına İngiltərə təkcə oçerk janrını deyil, həmçinin müasir jurnalistikada reportajın əvvəldən axıra zaman, məkan və sübutların məntiqi açılması nöqteyi-nəzərindən çatdırılmasını özündə ifadə edən “qırmızı ip” anlayışını bəxş etmişdir. Adı çəkilən ifadə XVIII əsrdə İngiltərədə hökümətin oğurluqla mübarizə aparmaq məqsədilə dəniz donanması kəndirlərinə bütün uzunluğu boyunca qırmızı sapın daxil edilməsi haqqında qərarı nəzərdə tutur [11, s.72].

Zaman keçdikcə və mətbuatın təkcə siyasi deyil, həmçinin iqtisadi üstünlükləri aydın seyr edilməyə başladı. İqtisadi dividendlər mətbuata jurnalistika və publisistikadan kənar şəxsləri cəlb etməyə başladı. “Tayms” qəzetini ilk dərc edən Con Valter, jurnalistikadan kənar bir şəxs idi. İndiyə qədər Şotlandiyada nəşr edilən “Skotsmen” qəzetinin yaradıcıları isə fabrikant və bankirlər idi. Royters informasiya agentliyinin yaradıcısı Pol Culins Royters haqqında isə ingilis müəllifi D. Rid belə qənaətə gəlir ki, əgər Royters XVIII əsrdə yaşasa idi o, İngiltərə üçün ən gəlirli sahə olan pambıqçılıqla məşğul olardı; əgər XX əsrin əvvəlində yaşasa idi uğurlu neft maqnatına çevrilərdi. Onun xəbərlərə üstünlük verməsinin səbəbi bazarda tələbatın həddən artıq yüksək olması ilə əlaqədar idi. İngiltərə mətbuatında Alfred və Harold Harmsvort qardaşlarının sahibkarlıq fəaliyyəti rəsmi tanınmaya və hər ikisinin lord titulu almasına səbəb oldu [10, s.19-22]. Adı çəkilən şəxslərin şöhrətinin Amerika analoqu Cozef Pulitzer kimi dahi şəxs idi. Onun adını daşıyan Pulitzer mükafatı Amerika mətbuatında ən qiymətli mükafat sayılır.

XIX əsr Böyük Britaniya mətbuatının səciyyəvi xüsusiyyətlərindən biri, mütəxəssis və peşəkarların nəşrlər üzərində işə cəlb edilməsi idi. Mətbuat təzə yarananda bütün xəbərləri ancaq jurnalistlər özləri yazırdılar. Lakin XIX əsrin sonunda “Tayms” kimi qəzetlərin həcmi 20-28 səhifəyə çatanda nəhəng mətbuatlar işə maliyyə, elm, ədəbiyyat və digər sahələr üzrə mütəxəssisləri cəlb etməyə başladı. Bununla belə universal jurnalistlərə də tələbat hələ yüksək idi. “Deyli teleqraf”ın (“Daily Telegraph”) müxbiri Emil Cozef Dillon bir neçə universitetdə təhsil almış, Avropa və Şərq xalqlarının dillərini bilirdi. Bu qəbildən onun tərəfindən alınan informasiya təkcə operativ yox, həmçinin etibarlı hesab olunurdu. Onunla bir dövrdə yaşayanlar Dillonun özündə jurnalist, alim və dövlət xadiminin xüsusiyyətlərini cəmləşdirdiyini düşünürdü [5, s.21-23].

XIX əsrin əvvəlində oğru, xuliqan, asosial həyat sürən qadınların təşkil etdiyi sosial stratifikasiyanın sonuncu pilləsi Böyük Britaniya mətbuatında yumoristik tərzdə təsvir edilirdi. Bu bir tərəfdən geniş oxucu təbəqəsini cəlb edir, digər tərəfdən isə güclü tənqid dalğasını yaratmışdı. Geniş oxucu kütləsini cəlb etmək üçün istifadə edilən qalmaqallı xəbərlər kütlənin mətbuata diqqətini artırsa da mühafizəkar dairələr mənəvi dəyərlərin zəifləməsini əsas gətirərək, mətbuatı tənqid atəşinə tuturdular. Mətbuatın nə dərəcə təqdir və ya tənqid olunmasına rəğmən onun o dövrdə cəmiyyətə təsir gücü müzakirə obyekti deyildi. 1835-ci ildə Amerika tabloidi "Nyu-York San" ("New-York Sun"), britaniyalı astronomun Ayı müşahidə edərkən orda canlı həyat aşkar etməsi haqqında yalan bir material dərc etdi. Oxucular məlumatın yenidən dərc edilməsini tələb etdi və Böyük Britaniya mətbuatı daxil, dünyanın digər qəzetləri adı çəkilən məqaləni təkrar çap etdilər. Məlumat elə inandırıcı təsir bağışlamışdır ki, xristian qadın icmalarının üzvləri Ayda yaşayanlara xristianlığı öyrətmək üçün Aya uçmağı qərarlaşdırmışdılar [5, s.48].

Tədqiqatçıların fikrinə əsasən, İngiltərədə mətbuat azadlığı rəsmi olaraq XVIII əsrin sonu – İngiltərə parlamentinin kral hakimiyyətinin nəşriyyatlara lisenziya vermək hüququnu ləğv etməsi ilə yaranmışdır [9, s.196]. Beləliklə, monarxiyanın mətbuat üzərində monopoliyası, senzura və məmurlara rüşvət üçün zəmin yoxa çıxır.

İngiltərədə mətbuat azadlığı qarşısında mövcud hüquqi məhdudiyyətlərin ləğv edilməsi hələ fikir və söz azadlığı üzərində mübarizənin yekunlaşması anlamına gəlməməlidir. Mətbuat azadlığına C. Lokk və C. Milton tərəfindən formalaşdırılan liberal yanaşmadan savayı, K. Marksın inqilabi-demokratik baxışı da tarixi ekskurs nöqteyi-nəzərindən maraq kəsb edir. Hələ Hegelin idealistik baxışlarının təsiri altında olanda belə K. Marks mətbuatı əhvalına və məqsədlərinə görə inqilabi sayırdı. Xalqların inqilabı birinci maddi yox, mənəvi sahədə baş verir, mətbuat isə bu istiqamətdə K. Marksa görə "bizim günlərdə ruhun özünü ən azad biruzə verməsidir" [3, s.197]. Bu fikrin əsasında Avropada baş verən inqilabların mətbuat tərəfindən ideoloji hazırlığı çıxış edirdi. Siyasi səbəblərdən Almaniyadan qovulan K. Marks İngiltərəyə emiqrasiya edərək, burada özünün şah əsəri olan "Kapital" da daxil olmaqla, bir çox əsərləri yazır. K. Marks həmçinin İngiltərə mətbuatında fəal siyasi jurnalist kimi də seçilirdi. Bu dövrlərdə K. Marksın inqilabi-demokratik baxışına əks olaraq mətbuata sahibkarlıq yanaşması formalaşırdı. Bu yanaşma ilə razılaşmayan K. Marks düşünürdü ki, qəzetin sahibi yazarları özünə tabe edib, prosesə məqsəd, iş kimi baxmağı tələb etdiyindən, mətbuat artıq cəmiyyətə xidmət edən bir institut kimi nəzərdən keçirilə bilməzdi. Marksa əsasən məqalə müəllifinin yaşamaq və yazmaq üçün maddi mükafat alması pis deyil, amma müəllif qazanmaq üçün yaşayıb, yazmamalıdır. O dövrdə K. Marksa qarşı mövcud münasibətin xarakterindən asılı olmayaraq, onun ideyaları şübhəsiz

olaraq Böyük Britaniya mətbuatının inkişafında böyük rol oynamışdır. Həmin dövrdə Böyük Britaniyada çox populyar olan "Tayms" qəzetinin redaktoruna əsasən, mətbuatın birinci vəzifəsi – ən yeni və ən dəqiq baş vermiş hadisələr haqqında məlumatları əldə edib, onların bütün millətin sərvəti olması üçün dərc etməsidir [6, s.3].

XIX əsrin sonu Böyük Britaniyada nüfuzlu mətbuat içərisində böyük oxucu kütləsi toplaya bilmiş "Birmingem ivning meyl" ("Birmingem axşam poçtu"), "Katolik herald" ("Katolik xəbərləri"), "Liverpul eko" ("Liverpul əks sədası") və "Sandey pipl" ("Bazar günün adamları") kimi nəşrlərin adını çəkmək mümkündür [2, s.62].

XIX-XX əsr aralığında Böyük Britaniya mətbuatında böyük parçalanma baş verir, mətbuat elitar və kütləvi olaraq iki hissəyə ayrılır. "Tayms" qəzeti, 1855 və 1888-ci illərdən çap olunmağa başlayan "Deyli Teleqraf" (Gündəlik teleqraf) və "Faynenşl tayms" (Maliyyə vaxtı), habelə "İndependent" (Müstəqillik) adlı qəzetlər azsaylı oxucu kütləsini cəlb etsə də, məlumatların yüksək keyfiyyəti, obyektivliyi, analitikliyinə görə cəmiyyətin yüksək təbəqələrini öz ətrafında səfərbər edə bilirdi. Bununla belə, kütlə üçün cəlbedici sayılan məlumat yayılmasında ixtisaslaşan nəşrlər içərisində 1896-cı ildən işıq üzü görən "Deyli meyl" (Gündəlik poçt), 1900-cu il tarixli "Deyli ekspress" (Gündəlik ekspress), habelə 1903 və 1964-cü illərdə nəşr edilməyə başlayan "Mirror" (Ayna) və "San" (Günəş) kimi tanınmış qəzetləri qeyd etmək olar [2, s.60].

Vurğulayaq ki, KİV-ə şamil olaraq istifadə edilən "dördüncü hakimiyyət" məfhumu da məhz Böyük Britaniyada yaradılmışdır. XVIII əsrdə İngiltərənin siyasi xadimi E.Berk, parlamentdəki müxbirlər qalereyasını "dördüncü təbəqə" adlandırdı. E.Berk, bununla müxbirlərin qanunverici hakimiyyətin ilk 3 təbəqəsinə– ruhani, aristokratiya və burjuaziyaya aid olmadığını və beləliklə real hakimiyyətə buraxılmadığını nəzərdə tuturdu. Lakin 1950-ci ildə Amerika alimləri mətbuatı "hakimiyyətin dördüncü qolu" adlandırıb, onun tərkibinə administrasiyadan müstəqillik, hökumətin fəaliyyətini tənqid etmək hüququ, ictimai həyatda güc və nüfuz kimi anlayışları daxil etdi [3, s.145]. Müşahidə etdiyimiz kimi "dördüncü hakimiyyət" ifadəsi özünün müasir anlamını Birləşmiş Ştatlar ədəbiyyatından götürsə də, etimoloji və tarixi kontekst nöqteyi-nəzərdən öz əsaslarını Böyük Britaniyada yaradılmış və lap əvvəldən tamamilə fərqli məna çalarlarına malik olan məfhumdan götürür.

XX əsr Böyük Britaniya mətbuatının xarakterik xüsusiyyətlərindən biri kütlə şüuruna yaxınlaşma cəhdi, cəmiyyətdə baş verən proseslərə isə daha sadə – oyun formasında yanaşmaq arzusu idi. 1904-cü ildə Londonun "Vikli Dispəç" ("Weekly Dispatch") adlı qəzetində elan edilmişdir ki, redaksiya bütün şəhər üzrə fərqli pul dəyərinə malik jetonlar gizlətmişdir. Bu elan insanlarda böyük canfəşanlıq yaratdı və insanlar jetonları divarlarda, körpülərdə, ictimai və şəxsi

mülklərdə axtararaq, ictimai asayişə mənfi təsir göstərirdilər. Qəzetdə yerləşdirilən: "jeton insanların öz iradələri ilə getmədiyi yerdə gizlədilib" – elanı, insanların London türmə divarı yaxınlığında qazıntılar aparmasına səbəb oldu. İnsanlar yolları və parkları fərqli iş alətləri ilə sökürdülər, körpülərin sökülməsi prosesində isə bəzi qadınlar ehtiyatsızlıqdan çaya yıxılırdılar. Jetonu tapdığını səhvən deyən şəxs də, yalançı jeton hazırlayıb, basdırmaqda yaxalanan şəxs də eynilə canını qəzəbli kütlədən qaçmaqla qurtarmalı olmuşdur. İnsanlar jeton haqqında yeni məlumat əldə etmək üçün təzə nüsxə qəzet arxasınca redaksiya binası qarşısında gecədən növbəyə dayanırdılar. Əyalətlərdə insan kütlələri poçt qatarlarının gəlməsini stansiyalarda gözləyirdi. Vəd edilən 6000 $-dan 4500 $ dəyərində jetonlar aşkar ediləndən sonra yarışma polisin tələbi ilə dayandırılmışdı. Ölkəyə dəyən ziyanlara rəğmən qəzet öz tirajını 340,000-dən 1 milyona qədər artıra bilmişdi [6, s.94-95].

İngiltərənin 1923-cü il tarixli "Vebster" ("Webster") lüğətindəki verilən izaha əsasən, "mass media – insan kütləsinə müraciəti nəzərdə tutan kommunikasiya vasitələridir" [8, s.4]. Adı çəkilən dövrdə televiziyanın olmaması, radionun isə geniş yayılmaması "mass media" ifadəsinin təmamilə mətbuata aid olduğu və dövlət ilə cəmiyyət arasında qarşılıqlı əlaqəni təşkil edən əsas kommunikasiya vasitəsi olmasını nəzərdə tuturdu. Beləliklə, XX əsrin əvvəllərində Böyük Britaniya cəmiyyəti və dövləti adı çəkilən lüğətin dili ilə mətbuatın ölkədə oynadığı əvəzolunmaz rolu yüksək qiymətləndirirdi.

XX əsrin əvvəllərində fəhlələrin hüquqlarını və ictimai-siyasi mövqelərini müdafiə edən yeganə qəzet 1916-cı ildə işıq üzü görmüş "Kol" ("Çağırış") qəzeti idi. Bu dövrdə kommunizm ideologiyası Avropa ölkələrində yayılması Böyük Britaniyadan da yan keçmədi. Böyük Britaniya Komunist partiyasının mətbuatına çevrilən "Kol" qəzeti 1920-ci ildə "Kommunist" adı ilə üç il nəşr edildikdən sonra bağlanaraq, öz yerini yeni "Uorkers uikli" qəzetinə verdi. Kommunist mətbuatın kapitalizmin ruhuna zidd olmasına rəğmən, Böyük Britaniyada mövcud liberal mühit adı çəkilən nəşrlərin bağlanmasına imkan vermədi. London zirzəmilərində elektrik işığı kimi adi rahatlıqların məhdudluğu şəraitində çıxan "Deyli uorker" ("Gündəlik fəhlə") qəzeti, hətta Soyuq müharibənin ən şiddətli informasiya qarşıdurmalarından belə dərc edilərək, 1966-cı ildən bu günədək "Morninq star" ("Dan ulduzu") adı ilə çap olunur [2, s.62].

II Dünya müharibəsi müddətində nasional-sosializmə qarşı aparılan informasiya müharibəsində fəal iştirak edən Böyük Britaniya mətbuatı adı çəkilən dövrdə özünün səciyyəvi xüsusiyyətlərinə ideoloji çalarlar da əlavə edirdi. Almaniyanın məğlubiyyəti və Hitlerin ölümü ilə bağlı xəbəri Böyük Britaniyanın "Nyus Xronikal" (News Chronical") qəzeti – "Yer üzündə ən nifrət olunan insan ölüb!" – başlığı ilə dərc etmişdi [6, s.66].

1946-cı ildə Amerikanın Fulton Universitetində U. Çörçilin məşhur nitqi, Qərb və Şərq arasında siyasi qarşıdurmaya, Qərb mətbuatı ilə SSRİ mətbuatı arasında isə ideoloji qarşıdurmaya qədəm qoydu. İngiltərə Mətbuat Şurasının yaranması məhz bu dövrə – 1953-cü ilə təsadüf edir. Soyuq müharibə şəraitində Böyük Britaniyanın kütləvi informasiya vasitələri kommunizm blokuna qarşı gedən informasiya müharibəsində fəal iştirak edirdi. 1958-ci ildə Böyük Britaniya jurnalları oxucular üçün "Qərbin hərbi gücünü necə effektli təşkil edək ki, soyuq müharibəni 10 il ərzində uda bilək?" mövzusunda yarışma elan etmişdir. Bir il sonra digər jurnalda keçirilən yarışma isə əsgərlərin nüvə müharibəsi şəraitində davranışları mövzusunda idi [2, s.64]. BBC sovet respublikaları üçün "Radius" proqramını, "Londondan baxış" adlı cari hadisələr xronikasını, elmi fikir tarixi və mədəniyyət haqqında "Paradiqma" jurnalını nəşr edirdi [3, s.155]. SSRİ Böyük Britaniya mətbuatının və digər KİV-lərinin öz ərazisində təsirini dəf etməyə çalışırdı. Buna baxmayaraq Rusiya politoloqu və geosiyasətçisi K.Hacıyeva əsasən informasiya-telekommunikasiya axınlarının güclənməsi, onların dəf edilmə məsələsində iqtisadi və prinsipial çətinliklərin artması ilə düz mütənasiblik təşkil edirdi [7, s.142]. Beləliklə, Sovet İttifaqı mövcud axın qarşısında tab gətirməyərək, Birləşmiş Ştatlar və Böyük Britaniya başda olmaqla Qərb ilə gedən uzunmüddətli informasiya müharibəsində məğlub oldu.

1960-1980-cı illərdə mətbuat, xəstəlik və sağlamlıq ilə bağlı dərc etdiyi məlumatlarda qurbanın tənqid olunması prinsipindən çıxış edirdi. Mətbuat QİÇS xəstəliyinə yoluxmuş şəxsləri, adətən asosial həyat yaşayan şəxslər kimi təqdim edirdi [5, s.301]. Adı çəkilən müddət ərzində mətbuatın siyasi proseslərə təsiri aydın seyr edilirdi. Hətta XX əsrin 70-ci illərində aparılan tədqiqatlarda insanların seçkilərdə iştirakdan imtina etməsinin səbəbləri içərisində medianın rolu da xüsusi vurğulanırdı. Böyük Britaniyada 1970-ci il seçkilərinə həsr olunmuş tədqiqat müəyyən etmişdir ki, bir qrup seçicilər namizədlərin KİV tərəfindən təqdim edilən obrazını bəyənmədikləri üçün seçkilərdə iştirakdan imtina etmişdilər. Nəzərə çatdıraq ki, aparılan tədqiqatlara əsasən, mətbuatın və sosial sorğuların insanların siyasi davranışına təsiri olduqca böyükdür. Müəllifi olduğu "Nüfuz psixologiyası" kitabında alim R. Çaldini, sosial psixoloq Stiven C.Şermanın İndiana ştatında istifadə etdiyi taktikaya diqqət çəkərək, insanın ardıcıl varlıq olması haqqında tezisi irəli sürür. İnsanlara xərçəng xəstəliyi üçün ianə yığmağa vaxt ayıra biləcəkləri haqqında sual verdikdə insanlar mərhəmətsiz və laqeyd görsənməmələri üçün suala adətən müsbət cavab verirdilər. Daha sonra Amerika Xərçənglə Mübarizə Assosiasiyası ianələrin yığılmasında iştirak ilə bağlı çağırış etdikdə, sorğuda müsbət cavab verən şəxslər cəmiyyət tərəfindən ardıcıl olmayan şəxslər kimi qəbul edilməmələri üçün bu çağırışa cavab verib, ianə toplayanların sayını beləliklə 7 dəfə artırmışdılar. Analoji taktika 1987-ci ildə Ohayo ştatında, prezident

seçkilərindən qabaq da keçirilmişdir. Seçkilərdə iştirak edəcəkləri haqqında suala müsbət cavab verən şəxslər, seçki günü dedikləri kimi seçkilərdə iştirak edərək, ümumi seçicilərin sayını beləliklə artırmışdılar [3, s.51-52].

Qeyd edilən eksperimentlərdən bəhrələnən Böyük Britaniya mətbuatı və xüsusilə BBC yayım şirkəti mütəmadi şəkildə insanlar içərisində sorğular keçirərək, siyasi proseslərə nəzərəçarpan dərəcədə təsir göstərirlər. Britaniya mətbuatının siyasi proseslərə güclü nüfuzu politologiya elmində mövcud "orkestrli furqon effekti" (bandwagon effect) vasitəsilə izah olunur. Müşahidələr göstərir ki, seçki prosesində hər hansı bir namizədə və ya partiyaya səs verəcəyini əvvəlcədən bilən azlıqdan fərqli olaraq əhalinin böyük bir qismi, seçki gününə qədər konkret bir mövqe formalaşdırmaqda çətinlik çəkir. Araşdırmalara əsasən belə qeyri-müəyyən çoxluq, seçki günü sorğular nəticəsində qabaqda gedən namizəd və partiyalara öz səslərini verirlər [6, s.231]. Beləliklə, sorğuları və ictimai fikrin formalaşmasını təşkilatlandıran mətbuat, beyin mərkəzləri və digər sosial institutlar demokratik rejimli Böyük Britaniyanın daxili və xarici siyasətinin müəyyən edilməsində aparıcı rola malikdir.

Qeyd etmək lazımdır ki, Britaniya mətbuatı üzərində uzun müddət dövlət nəzarəti olmamaşdır. XIX əsrin sonlarınadək əvvəlki rejimlərin ağır vergiləri və lisenziya məsələsi mətbuatın üzərindən götrülmüşdü. Müharibə dövrləri istisna olmaqla XX yüzillik boyunca , mətbuata dövlət nəzarəti məsələsi heç bir halda gündəmə gəlməmişdi. Lakin son 60 ildə, mətbuatın idarə olunmasına görə ictimai narahatlıq çoxlu sayda kral komissiyalarının və digər rəsmi orqanların yaranmasına gətirib çıxardı. Bütün bunlar isə öz növbəsində çoxlu sayda fəaliyyəti çox da effektli olmayan özünü tənzimləyən orqanların yaradılması ilə nəticələndi. Mətbuat üzrə şikayətlər komissiyası son zamanlarda yaradılmış bu tip orqanlardan idi [ 3, s.74-78].

Ümumiyyətlə 70 ildən çoxdur ki, Britaniyada mətbuatdakı mövcud standartlara görə ictimai narahatlıq var idi. Bu illər ərzində Britaniya mətbuatına daha çox "mətbuat baronları" deyilən az sayda güclü sahibkarlar nəzarət edirdilər. Lakin müxtəlif zaman kəsiklərində jurnalistlər, akademiklər və QHT kimi çoxlu sayda müxtəlif sivil cəmiyyətin elementləri media sahibkarlığına, siyasi qüvvələrin mətbuatdan sui-istifadə edərək fərdlərə hücüm etməsinə də diqqət cəlb edə bilmişlər. 1947-ci ildə "Mətbuat üzərində kral komissyası" yaradıldı. Bu komissiyanın əsas məqsədi mətbuatda maliyyə, nəzarət və idarəçilik məsələlərini yoxlamaq idi.

1949-cu ildə kral komissiyası "Britaniya jurnalist və redaktorlarının fəaliyyətində keyfiyyətin tənəzzülü" ilə bağlı məlumat verərək, "Mətbuatın ümumi şurası" əsasında təcrübə artıracaq, məsuliyyət hissini qaldıracaq, davranış kodunu tərtib edəcək, eyni zamanda şikayətləri qəbul edib mühakimə etdikdən sonra müvafiq sanksiyalar tətbiq edə bilən özünü tənzimləmə

sisteminin yaradılmasını təklif etdi. Mətbuat qanunla müəyyən edilmiş nəzarətin yaradılmasından çəkinərək əvvəlcə şuranın yaradılmasını rədd etsə də, nəhayət 1953-cü ildə "Mətbuatın ümumi şurası " yaradıldı. Lakin bu şura təklif ediləndən fərqli idi. Fəaliyyət prinsipləri və nümayəndəliyi yox idi.

1962-ci ildə mətbuat fəaliyyətində çatışmamazlıqları araşdırmaq üçün yaradılan ikinci kral komissiyası hesabat verərək, "Mətbuatın ümumi şurasını kəskin tənqid etdi və ümumi şuranın fəaliyyəti yaxşılaşanadək qanunla müəyyən edilmiş nəzarətin həyata keçrilməsini təklif etdi. Qeyri—mətbuat sahəsində çalışan bir neçə nəfərdən ibarət mətbuat şurası yaradıldı. 1974-cü ildə davamlı şikayətlərdən sonra, qəzetlərin və dövrü nəşrlərin redaktə standartlarının və müxtəlifliyinin, eləcə də müstəqilliyin qorunub saxlanmasına təsir edən amillərlə yanaşı, milli, regional, yerli qəzet seçimində ictimaiyyətin seçim azadlığına təsir edən faktorları da araşdırmaq məqsədilə üçüncü kral komissiyası yaradıldı.

1977-ci ildə üçüncü kral komissiyası mətbuat şurasının fəaliyyətini tənqid edən hesabat verdi. Hesabatda göstərilirdi ki, çox təssüfki şura qəzetlərə qarşı şikayətlərlə məşğul olduğunu bilikli ictimaiyyətə inandira bilməmişdir və komissiya jurnalistlər üçün yazılı formada davranış kodunun hazırlanması ilə yanaşı, mətbuat şurası və sənayesinin fəaliyyəti qeyri-kafi olduğu halda qanunla müəyyən edilmiş nəzarətin həyata keçrilməsini təklif etmişdir. Mətbuat Şurası, komissiyanın 12 təklifindən 5-ni rədd etdi və yazılı davranış kodu məsələsinə isə əhəmiyyət verilmədi. 1989-cu ildə Deyvid Kalkutun rəhbərliyi ilə "Məxfiçilik və əlaqəli məsələlər üzrə araşdırma" yaradıldı. Mətbuat şurası islahatlara başladı və ilk dəfə özünün "Təcrübə Kodu"nu çap etdirdi. Kalkutun apardığı araşdırmaya əsasən verdiyi hesabatı mətbuatın özünü tənzimləmə təşkilinə yenidən baxılmasını və yeni özünü tənzimləmə təşkilatı—Mətbuat Şikayətləri Komissiyasının yaranmasını təklif edərək, eyni zamanda mətbuata könüllü özünüidarə üçün axrıncı şans verilməsini də məsləhət gördü. Hesabatda effektli özünü tənzimləmə rejiminin elementləri kimi tədbirlər toplusu təqdim edildi və təklif edildi ki, Mətbuat Şikayətləri Komissiyasına qanunla müəyyən edilməmiş özünü tənzimləmə orqanının fəaliyyətinin effektliliyini nümayiş etdirmək üçün 18 ay sınaq müddəti verilsin. Əgər komissiyanın fəaliyyəti bunu doğrultmasa, qanunla müəyyən edilmiş tribunal mətbuata qarşı olan şikayətlərə baxmaq məsələsini öz üzərinə götürməlidir [5, s.4-18].

1991-ci ildə Mətbuat Şikayətləri Komissiyası yaradıldı. 1993-cü ildə komissiyanın fəaliyyəti ilə bağlı Kalkutun ikinci hesabatı çap edildi. Hesabatda Mətbuat Şikayətləri Komissiyasının həyata keçirdiyi özünü tənzimləmənin uğursuz olduğu göstərildi və mətbuat şikayətləri ilə tribunalının yardılmasını təklif etdi. Mətbuat Şikayətləri Komissiyası bu təklifləri rədd etdi və bir sıra islahatlar keçirdi. 1995-ci ildə Hökumət Kalkutun qanunla müəyyən edilmiş nəzarət sisteminin yaradılması təklifini rədd etdi. Birləşmiş Krallıqda gizliliyin

qorunması ilə fikir azadlığı arasında balans yaratmağa çalışan mətbuatın tənzimləmə sistemi son bir neçə ildə əsaslı dəyişikliklərdən keçmişdir.

2011-ci ilin iyul ayında öldürülmüş məktəbli qız -Milli Daulerin (Milly Dowler) telefonundan Nyus of ze Uorld (News of the World) qəzetinin müxbirləri tərəfindən icazəsiz məlumatların toplanması Baş Nazirin mətbuatda etik qaydalarla bağlı lord hakim Levesnun rəhbərliyi altında ictimai sorğu keçirməsinə səbəb oldu. Levesnun "mətbuat mədəniyyəti, mətbuatın fəaliyyəti və mətbuatda etik qaydalarla bağlı" (An inquiry into the culture, practices and ethics of the press) hesabatı 2012-ci il noyabırın 29-da nəşr olundu. Mətbuatın özünü tənzimləmə funksiyasını həyata keçirən orqanın yaranması xüsusilə krallıqdan kənarda yaşayan əhali arasında anlaşılmazlığa və şübhənin artmasına səbəb olmuşdur [10, s.14-18].

Levesn öz hesabatında Mətbuat Şikayətləri Komissiyasının mövcud özünü tənzimləmə mexanizmlərinin müvəffəqiyətsizliyə uğradığını göstərməklə yanaşı bu orqanın azadlığını da itirdiyini qeyd edir. Bununla belə Brayn Levesn mətbuatın qanunla nizamlanmasının da tərəfdarı deyildi. O, əsl müstəqil və effektiv tənzimləmə sisteminə ehtiyacın olduğunu qeyd edirdi. Onun fikrincə ən yaxşı model mətbuata nəzarətdə hökumət və siyasi müdaxilələrin olmamasıdır. Levesn hesabatda özünü tənzimləmə ilə bağlı iki əsas məsələyə diqqət çəkmişdir. 1) Yeni özünü tənzimləmə sisteminin müstəqilliyini və bu sistemin əvvəlki özünü tənzimləmə orqanlarının çatışmamazlıqlarında əziyyət çəkməməsini necə təmin etmək?! 2) Bütün əsas nəşrlərin yeni özünü tənzimləmə sisteminə qoşulmasına necə nail olmaq?!

Bütün bu problemlərin çıxış yolu iki əsas yeniliyi tətbiq etmək idi. Hər iki yeniliyin əsas məqsədi isə mətbuatda tənzimləmə prosesesini düzgün həyata keçirmək, nəşrlər arasında balans yaratmaq, yəni heç bir siyasi müdaxilə olmadan mətbuatın tam azad tənzimlənməsinə təmin etmək idi. Mətbuat isə tənzimləyici orqanı özü yaradır. Hesabatda bu proses aşağıdakı kimi təsvir olunur:

"Mətbuatın yaratdığı özünü tənzimləmə orqanının mətbuatdan, parlamentdən və hökumətdən azad olmasını istəyən ictimaiyyətin narahatlıqlarını aradan qaldırmaqçün, eyni zamanda abunəçilərin şikayətlərinə baxılması və jurnalistikada yüksək standartların qorunub saxlanması məqsədilə hüquq həmin qanuni tələbləri müəyyən etməklə yanaşı bütün bunları tanıyan və təsdiq edən mexanizmin də yaradılmasını təmin etməlidir [7, s. 24-28]".

Brayn Levesn tanınma orqanının mövcud kommunikasiya sisteminə qanuni nəzarəti həyata keçirən Ofcom (The Office of Communication) kimi strukturun yradılmasını təklif etdi. Lakin o, Ofcomun baş icraçı direktorunun hökumət nazirləri tərəfindən təyin olunduğunu diqqətə çatdıraraq, alternative kimi qanunla müəyyən edilmiş müvəkkil postunu təklif etdi. Hesabatda aşağıdakılar yeni özünü tənzimləmə orqanının səlahiyyətlərinə aid edilmişdir:

- jurnalistika standartları kodunu təqdim etmək;
- bu standartların pozulduğunu iddia edən şikayətləri dinləmək;
- fərdi qəzetləri həvəsləndirmək üçün, daxili şikayətlərlə məşğul olarkən prosesə daha ciddi yanaşdıqlarını nümayiş etdirməkçün müvafiq kompensasiya təyin etmək;
- standartların inkişaf etməsində fəal rol oynamaq, sistemdəki ciddi pozuntuları araşdırmaq
  və müvafiq sanksiyalar tətbiq etmək;
- tənzimləmə orqanına üzv olan nəşrləri istənilən hüquqi iddialarla məşğul olmaqçün ədalətli, sürətli və ucuz arbitraj xidməti ilə təmin etmək [10, s. 114-118].

Hesabata əsasən yeni özünü tənzimləmə orqanına müstəqil kollegiya rəhbərlik edəcək və heyətin tərkibinə əsasən mətbuatdan asılı olmayan şəxslər, eləcə də keçmiş redaktorlar, baş və ya akademik jurnalistlər kimi media sənayesində təcrübəsi olan kifayət sayda nümayəndələr də daxil olacaq. Kollegiyaya hazırda fəaliyyət göstərən redaktor, İcmalar Palatasının və ya hökümətin üzvləri daxil ola bilməz. Tənzimləyi orqanın nəzadində mətbuatda Standartlar Kodu mövzusunda tövsiyyələr hazırlamaq tapşırığını icra edən "Kod komitə" daxildir ki, bu komitəyə hazırda fəsliyyət göstərən redaktorların daxil olması mümkündür. Lakin kodun məzmunu və dərc edilməsinə son qərarı kollegiya verməlidir. Kollegiyanın abunəçilər tərəfindən "Kod komitə"nin standartları pozması haqqında şikayətlərini dinləmək və qərar vermək səlahiyyəti var. Eyni zamanda o aşağıda sadalanan müvafiq qabaqlayıcı tədbirlər də həyata keçirə bilər :

- standartları və ya idarəetmə tələblərini ciddi və ya sistemli pozan hər hansı bir üzvə qarşı uyğun sanksiyalar tətbiq etmək (dövriyyəsinin 1%-ə qədərini-maksimum 1 milyon məbləğində malyyə sanksiyaları da bura daxildir)

Hesabatda hazırda xidmət göstərən redaktorlara kollegiyaya şikayətlərlə bağlı məsləhət verən heç bir komitənin işində iştirak etməyə icazə verilməməsinin vacibliyi göstərilir. Bu tip komitələrdə daha çox mətbuatdan asılı olmayan şəxslər üstünlük təşkil etməsi də hesabatda təklif olunurdu [3, s.93-128].

2013-cü il oktyabrın 30-da mətbuatın özünü tənzimləməsi haqqında kral xartiyası qəbul olundu. Bu isə siyasi partiyalar, mətbuat və parlament arasında Levesn hesabatının ardınca ən uğurlu addımı atmaq məqsədilə bir il sürən danışıqların kulminasiya nöqtəsi oldu. Kral xartiyası mətbuat üçün bir və ya daha çox müstəqil, özünü tənzimləyən orqanların yaradılmasına icazə verdi. İstənilən belə orqan Mətbuat tanınma paneli (Press Recognition Panel) tərəfindən tanınmalı və həmin orqanın fəaliyyəti 3 ildə bir dəfə yoxlanılmalıdır. Bu panel isə 2014-cü il, noyabrın 3-də yaradıldı. Hal-hazırda nəzarət mətbuata

nəzarəti iki orqan həyata keçirir. Belə ki, mətbuatda könüllü tənzimləmə orqanı─Mətbuat şikayətləri ilə bağlı komissiya (The Press Complaints Commission) 2014-cü ilin sentyabrında bağlandı və onun yerini isə Müstəqil Mətbuat Standartları Təşkilatı ─ MMST (The İndependent Press Standards Organisation, İPSO ) tutdu. Qəzetlərin çoxu Mətbuat tanınma paneli tərəfindən tanınmaq üçün müraciət etməyən MMST-də qeydiyyatdan keçmişdir. Levesn hesabatında göstərilən tövsiyyələrə tam uyğun olan digər tənzimləyici orqan İMPRESS-ə isə çox az sayda qəzet qoşulmuşdur. Qeyd etmək lazımdır ki, İMPRESS 2016-cı il, oktyabrın 25-də Mətbuat tanınma paneli tərəfindən tənzimləyici orqan kimi təsdiq olunmuşdur. Eyni zamanda Qardiyan (the Guardian) kimi heç bir tənzimləyici orqandan qeydiyyatdan keçməmiş və öz nəzdində oxucu ombudsmanları müəyyənləşdirmişdir [3, s.130-165].

Levesnın hesabatının əsasında qəzet istehsalçılarını Mətbuat tanınma paneli tərəfindən təsdiq olunan tənzimləyici orqanlara qoşulma prosesini stimullaşdırmaq üçün maliyyə dəstəyinin verilməsi ilə bağlı qanunvericilikdə iki dəyişikliyin edilməsi nəzərdə tutulurdu. “Cinayət və Məhkəmələr haqqında akt”ın (The Crime and Courts Act 2013) 40-cı bölməsi ictimaiyyətin təsdiq olunmuş tənzimləyici orqanlarda qeydiyyatdan keçməyən qəzetlərə qanunsuz fəaliyyətləri olduğu halda məhkəməyə müraciət etmək imkanlarını artırırdı.Bu isə o demək idi ki, qəzet hər iki halda ─ məhkəmədə udduğu və ya uduzduğu halda qanuni xərcləri yenə də ödəməli idi. Lakin bu qanun qüvvəyə minmədi. Aktın 34-cü bölməsindən 39-cu bölməsinədək tənzimləyici orqanlarda qeydiyyatda olan nəşrlərə cərimə tətbiqlərində edilən güzəştlər barədə məlumat verilir və aktın bu bölmələri qüvvəyə minmişdir. Qeyd etmək lazımdır ki, 2013-cü il aktının media ilə bağlı bölmələri yalnız İngiltərə və Uels ərazisində qüvvədədir. Kral xartiyasının Şotlandiyada qəbul olunmasına baxmayaraq, qanunvericilikdəki mövcud fərqliliklərin mövcudluğu nəşrlərlə bağlı qanunlarda da fəqliliklərin yaranmasına gətirib çıxartmışdır.

## ƏDƏBİYYAT


1. Брайант Дженнингз, Томпсон Сузан. “Основы воздействия СМИ”. Пер. с англ., М.: Издательский дом "Вильяме", 2004
2. Cohen-Almagor. “ After Leveson: Recommendations for instituting the Public and Press Council” The International Journal of Press/Politics, 2014a
3. Cohen-Almagor. ” Towards responsible journalism: Code of practice, journalist oath and conscience clause” Ethical Space 2014b
4. Curran, J., & Seaton, J. “ Power without responsibility”. London: Routledge 2010

5. Keeble, R.” Ethics for journalists”. London: Routledge 2009
6. Morgan, K. ”The British Press Council experience. In R. T. Kaplar (Ed.), Beyond the courtroom”. Washington, D.C: The Media Institute 1990
7. O’Malley, T., & Soley, C.” Regulating the press”. London: Pluto 2000
8. Patching, R., & Hirst, M. ”Journalism ethics”. Abingdon: Routledge 2014
9. Stanyer, J. “Intimate politics”. Cambridge: Polity 2013
10. Steel, J. “Leveson: Solution or symptom? Class, crisis and the degradation of civil life”. Ethical Space 2013
11. Shannon, R.”A press free and responsible: Self-regulation and the press complaints commission”. London: John Murray 2001.